**“Hərbi nəqliyyat vəzifəsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Hərbi nəqliyyat vəzifəsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**
1. Müəyyən edilsin ki:
1.1. Azərbaycan Respublikasının 2005-ci il 17 may tarixli 916-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi nəqliyyat vəzifəsi haqqında Əsasnamə”nin 1-ci bəndində və 9-cu bəndində (birinci və ikinci hallarda) nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;
1.2. həmin Əsasnamənin 6-cı bəndində (ikinci halda), 14-cü bəndində, 21-ci bəndinin dördüncü abzasında və 26-cı bəndində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;
1.3. həmin Əsasnamənin 18-ci bəndində və 24-cü bəndində (ikinci halda) nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir;
1.4. həmin Əsasnamənin 6-cı bəndində (birinci halda), 23-cü bəndində, 24-cü bəndində (birinci halda) nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini və 21-ci bəndinin birinci abzasında, 22-ci bəndində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, ~~Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi,~~ Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, *Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti,* Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti və xüsusi dövlət orqanları öz səlahiyyətləri daxilində həyata keçirirlər;[1]
1.5. həmin Əsasnamənin 13-cü bəndində, 16-cı bəndinin ikinci və altıncı abzaslarında, 17-ci bəndinin ikinci abzasında və 25-ci bəndində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının *Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələri* həyata keçirir.[2]
2. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 mart 2006-cı il
№ 382

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. **1.** 13 noyabr 2017-ci il tarixli **1674** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 14 noyabr 2017-ci il, № 250, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №11 , maddə 2013)**
2. **2.** 6 dekabr 2017-ci il tarixli **1711** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 7 dekabr 2017-ci il, № 270, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2279)**

FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 6 dekabr 2017-ci il tarixli **1711** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 7 dekabr 2017-ci il, № 270, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2279)** ilə 1.4-cü bənddən “**Azərbaycan Respublikasının Milli Təhlükəsizlik**

**Nazirliyi,**” sözləri çıxarılmışdır və həmin bəndə “**Ədliyyə Nazirliyi,**” sözlərindən sonra “**Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti,**” sözləri əlavə edilmişdir.

**[2]** 13 noyabr 2017-ci il tarixli **1674** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 14 noyabr 2017-ci il, № 250, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №11 , maddə 2013)** ilə 1.5-ci bənddə “**Hərbi Komissarlığı**” sözləri “**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələri**” sözləri ilə əvəz edilmişdir.